UOT 159.9.

***Kəmalə Rəfail qızı Mirzoyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Odlar Yurdu Universiteti*

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANLI YENİYETMƏLƏRDƏ ETNİK-MİLLİ HİSSLƏRİN FORMALAŞDIRILMASINA TƏSİR EDƏN PSİXOLOJİ AMİLLƏR

***Камаля Рафаэль гызы Мирзоева***
*докторант по программе доктора философии*
*Университет Одлар Юрду*

# ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ЭТНО-НАЦИОНАЛЬНЫХ ЧУВСТВ У АЗЕРБАЙДЖАНСКИХ ПОДРОСТКОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

***Kamala Rafael Mirzoyeva***
*doctorial student in the proqram of doctor of philosophy*
*University of Odlar Yurdu*

# PSYCHOLOGICAL FACTORS INFLUENCING THE FORMATION OF ETHNO-NATIONAL FEELINGS IN AZERBAIJANIAN TEENS IN MODERN CONDITIONS

**Xülasə:** Respublikamızda baş verən ictimai-psixoloji hadisələr, sosial-iqtisadi, elmi-mədəni inkişaf, ölkəmizin günü-gündən artan qüdrəti, nüfuzu. Bakıda bir-birinin ardınca keçirilən beynəlxalq konfranslar, forumlar, oyunlar, məktəbdə, sinifdənxaric və məktəbdənxaric tədbirlərin keçirilməsi, şəhidlərin, milli qəhrəmanların, Böyük Vətən müharibəsi iştirakçılarının yad olunmaları, 1990-cı il Yanvar faciəsi, "Xocalı" soyqırımı, 2016-cı il Aprel döyüşlərində oğul və qızlarımızın misli görünməmiş qəhrəmanlıqları və yüzlərlə, minlərlə belə faktlar bizim milli qürur mənbəyimizdir. Bu ictimai-psixoloji hadisələrdən yaradıcılıqla istifadə etməklə hər bir müəllim, valideyn, yeniyetmələrdə etnik hissləri inkişaf etdirə bilər və buna borcludur.

***Açar sözlər:*** *etnik-milli hisslər, Xocalı faciəsi, xalq, cümhuriyyət, multikulturalizm, humanizm, tolerantlıq, 20 Yanvar faciəsi, Aprel döyüşləri.*

**Резюме:** Общественно-психологические события, социально-экономическое, научно-культурное развитие, с каждым днём повышающают мощь и влиятельность нашей страны. Источником нашей национальной гордости являются проводимые в Баку друг за другом международные конференции, форумы, игры, осуществление в школах внеклассовых и внешкольных мероприятий, чтение памяти шехидов, национальных героев, участников Великой Отечественной войны. Беспримерный героизм наших сыновей и дочерей в трагедии январских событий 1990 года, в Ходжалинском геноциде, в апрельских боях 2016 – года, а также сотни и тысячи подобных фактов. Каждый учитель, каждый родитель может развить этнические чувства, у подростков творчески используя эти общественно-психологические события и он обязан это делать.

***Ключевые слова:*** *этнонациональные чувства, ходжалинская трагедия, народ, республиканизм, мультикультурализм, гуманизм, толерантность, трагедия 20 января, апрельские бои.*

**Summary:** Socio-psychological events, socio-economic, scientific and cultural development, every day increase the power and influence of our country. The source of our national pride is the international conferences, forums, games held in Baku one after another, the implementation of extra-curricular and extra-curricular activities in schools, reading the memory of martyrs, national heroes, and participants in the Great Patriotic War. The unparalleled heroism of our sons and daughters in the tragedy of the January events of 1990, in the Khojaly genocide, in the April battles of 2016 - as well as hundreds and thousands of similar

facts. Every teacher, every parent can develop ethnic feelings in adolescents creatively using these social and psychological events, and he is obliged to do this.

***Key words:*** *ethnic-national feelings, Khojaly tragedy, people, republicanism, multiculturalism, humanism, tolerance, 20 January tragedy, April fights.*

Etnik psixologiyanın emosional sahəsini etnik-milli hisslər təşkil edir. Bu hisslər xalqın, millətin öz adət-ənənələrinə, kökünə, qanyaddaşına, bütövlükdə cəmiyyətin mənəviyyatına, münasibətini ifadə edir. Etnik milli hisslər hər bir etnos üzvünü öz xalqına, torpağına, dövlətinə, dövlət rəmzlərinə sədaqət ruhunda formalaşdırmağa yönəldir. Bu hisslər eyni zamanda etnosu, xalqı, milləti bir-birinə yaxınlaşdırır, birləşdirir, onlar arasında ünsiyyəti, münasibəti asanlaşdırır. Müasir şəraitdə vətənə layiqli övlad yetişdirmək üçün, yeniyetmələri məhz bu ruhda, bu əqidədə formalaşdırmaq ən ümdə vəzifələrdəndir.

Azərbaycanda etnik-milli hisslər XX əsrin sonlarında, SSRİ-nin parçalanmasından sonra daha qabarıq şəkildə özünü göstərməyə başlamışdır. Etnik-milli hisslərin əsasını qoyan şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseyinzadə kimi igid və cəsur sərkərdələrimizin göstərdikləri şücaət bunu bir daha sübut edir. Azərbaycan xalqı qürurlu, mərd, qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin vətənpərvər, milli-etnik hissləri ilə həmişə nümunə olan nəsil yetirmişdir. Bu etnik hisslər insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə açılan, yeniyetmə və gənclərin bu ruhda inkişaf və tərbiyəsi həmişə vacib məsələlərdən biri olmuşdur. Buna görə də ulu öndərimiz, müstəqil Azərbaycanımızın memarı və qurucusu Heydər Əliyev milli etnik hisslərin inkişaf və tərbiyəsinə, uşaq və gənclərin bu ruhda böyüməsinə xüsusi əhəmiyyət vermiş və bunu öz çıxışlarında dönə-dönə tövsiyə etmişdir.

Yeniyetmələrdə etnik-milli hisslərin formalaşdırılması üçün həmişə istənilən qədər qəhrəmanlıq salnamələri ("Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi və s.) "Azərbaycan xalq cümhuriyyətinin yaradılması və əhəmiyyətini göstərən materiallar, şanlı tariximizi özündə əks etdirən bədii əsərlər, kinofilmlər, yaxın tariximizlə bağlı hadisələr (20 Yanvar, Xocalı faciələri, 2016 cı il aprel döyüşləri, milli qəhrəmanların həyat və fəaliyyətini əks etdirən əsərlər və s.). Son illərdə ölkəmizin artan nüfuzu, Bakıda bir-birinin ardınca keçirilən beynəlxalq konfranslar, forumlar və digərlərini misal göstərə bilərik. Müasir Azərbaycanlı yeniyetmələrdə milli-etnik hisslərin inkişaf və tərbiyəsindən istifadə edilən ən qüdrətli psixoloji təsir vasitələrindən biri Heydər Əliyevin milli ruh, milli mənlik, milli özünüdərk, milli ləyaqət və s. hisslərinin prioritet məsələ olduğunu bir dövlət xadimim kimi bütün xalqa bəyan etməsi proqramıdır. Heydər Əliyev qeyd edirdi ki, "Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə getdiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək" (16, s. 122)

Tarixi təcrübə göstərir ki, milli kimliyin dərk edilməsi, el-obaya, mənsub olduğu millətə, xalqa, el-obaya bağlılıq, Vətən torpağına, onun sərhədlərinin toxunulmazlığına, gənc nəslin əsl vətəndaş ruhunda tərbiyə alaraq formalaşması bütün dövrlərdə ən aktual problem olmuş və bu gün də ən ciddi narahatlıq doğuran problemdir. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalq yaradıcılığı nümunələrində ("Vətəndə keçən ağır gün, Vətəndən kənarda keçən min bir bahardan yaxşıdır ", "El igidləri ilə tanınar", "Vətənə gəldim, imana gəldim", "Gözsüz yaşamaq olar, Vətənsiz yox", "Qürbət yerdən, Vətən yaxşıdır", "Eli olmayanın, dili də olmaz") (18, s. 154) dastanlarda, klassiklərin, tarixi şəxsiyyətlərin, maarifçilərin yaradıcılığında biz bunu aydın surətdə görürük.

Hamıya məlumdur ki, əsrlərlə Azərbaycana, eyni zamanda bütün Türk millətinə düşmən olan ermənilərə tutarlı cavab vermək, onların öz dilləri ilə danışmaq vaxtı çoxdan çatıb. Bunun üçün ən doğru yol ölkəmizin sosial-iqtisadi, siyasi, hərbi, elmi-mədəni, ordu quruculuğu nöqteyi nəzərindən inkişafına xüsusi ilə gənc nəslin etnik milli ruhda inkişafına nail olmalıyıq.

Yeri gəlmişkən qeyd etməliyik ki, etnik-milli hisslərin inkişafı və təzahür formaları nöqteyi nəzərdən etnoslar, millətlər bir-birindən ciddi surətdə fərqlənirlər. Belə ki, bəzi etnos və xalqlarda birləşdirici. yaxınlaşdırıcı, xeyirxahlıq, humanizm, tolerantlıq, multikulturalizm kimi milli hisslər ön plana keçir. Məsələn, eyni millətə xas olmaq, eyni vətənə malik olmaq, eyni inam və əqidəyə, eyni mənəvi-psixoloji, mədəni sərvətlərə sahib olmaq və s. Lakin əksinə bir çox hallarda bəzi xalqlarda parçalayıcı, eqoizm, rəzillik, düşmənçilik, şovinizm kimi etnik-hisslər ön plana keçir (ermənilərdə olduğu kimi). Belə hisslər mənsub olduğu millətin parçalanmasına, xırdalanmasına gətirib çıxarır. Eyni xalqa və ya millətə xas olan bu etnik milli hisslər onlar arasında başqa xalqlara qarşı gözü-götürməmək, nifrət hisslərini formalaşdırır. Başqa millətlərə qara yaxmaq, onu pisləmək, gözdən salmaq, onlara qarşı psixoloji mübarizə aparmaq ön plana keçir. Təbii ki, həmin millətin nümayəndələri müvəqqəti müəyyən bir nailiyyətə malik olsalar da son nəticədə bir çox acı faciələrlə üzləşirlər. Məsələn, ermənilər əsrlərlə Türk millətinə, Azərbaycan millətinə düşmən mövqedə olub, torpaq iddiası ilə müharibə aparıblar. Nəticədə heç bir uğura nail olmayıblar. Əksinə Azərbaycan xalqı öz tolerantlığı, humanizmi ilə dünya xalqlarına nümunə olacaq bir model yaradıb.

Ermənilər zaman-zaman dünyada baş verən bir çox çaxnaşmalardan öz xeyirlərinə istifadə edərək Azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini həyata keçirmiş və bir çox soyqırımı (1918, 1905, 1948, 1988, 1993-cü illər) törətmişlər. Ən yeni tarixi dövrdə torpaqlarımızın 20 faizini işğal etmiş, bir milyondan artıq soydaşlarımızı ata-baba torpaqlarından didərgin salmışdır. 1988-1989 illərdən başlayaraq o zaman ki, ölkə başçılarının səriştəsizliyi nəticəsində başımıza çox faciələr gəlib. Bu faciələrdə xalqımız, millətimiz misli görülməmiş milli qırğınlara məruz qalmışlar, minlərlə, insan itkisinə məruz qalmışlar. “20 Yanvar” faciəsi “Xocalı” faciəsi və digər qanlı hadisələri buna misal göstərmək olar. Yadelli işğalçılar ayrı-ayrı dövrlərdə Vətənimizə basqın etmiş, bizi millət kimi dünya xəritəsindən silməyə cəhd göstərmişlər. Belə faktlar çox olub. Lakin, Azərbaycan xalqı mərd, vətənpərvər oğul və qızlarının sayəsində düşmənə əyilməyib öz ləyaqətini, qürurunu saxlayıb.

“Dədə Qorqud” boylarında oğuzların mənəvi tələbatla bağlı etnik hisləri daha qabarıq və dolğun şəkildə öz əksini tapmışdır. Oğuzlar xeyirxahdırlar. Kömək etməyə ehtiyacı olanlara yardım göstərməyə can atırlar. “Acı doyurmaq, çılpağı geyindirmək” ifadələrinə bu dastanda tez-tez rast gəlirik.

Oğuzlar istər insanın, istərsə də təbiətin gözəlliyini qiymətləndirməyi bacarırlar. “Qurulu yaya bənzər çatma qaşlım, qoşa badam sığmayan dar ağızlım, dar ürəyinə qan dammış kimi al yanaqlım” deyə qadın gözəlliyini vəsf edən oğuzlar həmin gözəllikdən zövq alırlar. Xüsusilə mənəvi gözəlliyə böyük üstünlük verirlər. Mərdliyi, əliaçıqlığı, dönə-dönə mədh edir, öyürlər. Onlarda yalançılığa, qorxaqlığa, böhtana qarşı nifrət böyükdür. Oğuzlarda yüksək əxlaqi, vətənpərvərlik və milli qürur hissləri xüsusi yer tutur. Onlarda qürur hissi etnik özünüdərketmə ilə çox sıx qarşılıqlı əlaqədədir. Özünüdərketmənin inkişafına etnik qürur hissi güclü təkan verir. Eyni zamanda etnik özünüdərketmənin səviyyəsi etnik şüurun inkişaf səviyyəsi ilə müəyyənləşir.

Oğuzların vətənpərvərlik, yurda, doğma ocağa bağlılıq hisləri güclüdür. Oğuzlar etnik mənsubiyyətini dərk edir, onu qiymətləndirir və öz ləyaqətini çox uca tutur, oğuz olduqları üçün fəxr edirdilər. Bunun parlaq simasını Salur Qazanın əsirlikdəki davranış və hərəkətlərində görürük. Düşmənlər Qazanın qarşısına belə bir şərt qoyurlar ki, qopuz çalıb bizi öyüb, oğuzları isə həcv etsən, səni buraxarıq. Qazan qopuzunu əlinə alıb deyir: “Min-min düşmən gördümsə “oyunun” dedim. İyirmi min düşmən gördümsə, qaçmadım. Otuz min düşmən gördümsə, ot saydım. Qırx min düşmən gördümsə qıya baxmadım. Əlinə düşmüş ikən, ey kafir, öldür məni. Çək qılıncını, kəs başımı. Mən ki, qorxan deyiləm. Öz əslimə, öz kökümə xain çıxan deyiləm. Oğuzların igidləri dura-dura mən sənin şərəfinə, şəninə tərif yaxan deyiləm” (6, s. 91)

Salur Qazanın ümumxalq ləyaqəti, ümumxalq qürur hissi o qədər güclü olur ki, öz vətəninin, xalqının əleyhinə deyilmiş “adi” sözü ilə bağışlamır, nəinki düşmənlərinə, hətta öz ölümünə də meydan oxuyur. Bu hisslərin parlaq təzahürünü Qaraca Çobanın simasında da müşahi-

də edirik. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, oğuzların vətənpərvərlik hissi bizim indi düşündüyümüz "millət" anlayışı səviyyəsinə yüksəlməmiş və oğuzlar indiki mənada "Vətən", "ölkə" kateqoriyası ilə düşünməmişdilər. Onlarda hələ "tayfa", "xalq", "qəbilə" anlayışları hökm sürürdü. Azərbaycan xalqı azadlıq sevən, müstəqilliyə can atan, heç bir millətin boyunduruq altına düşməyi qəbul etməyən bir millətdir. Azərbaycan xalqı ilk azadlıq qadını 1918-ci ilin mayında Şərq dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra hiss etdilər. Belə bir müstəqil dövlətin yaradılması Azərbaycan xalqının özünəqayıtmasına, bir millət kimi formalaşmasına, milli ləyaqət, qürur və digər etnik hisslərin inkişafına xeyli təsir göstərir. Cəmi 23 ay (1918-ci il may, 1920-ci il aprel) fəaliyyəti dövründə Azərbaycan bir millət kimi öz kimliyini dərk etdi. Məhəmməd Əmin Rəsulzadənin bilavasitə rəhbərliyi ilə yaranan bu hökumət Azərbaycançılıq ideologiyasının təməlini qoydu. Bu hökumətin milli şurasının istiqlal bəyannaməsində deyilirdi" Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır" (12, s.26)

M.Ə. Rəsulzadə XX əsrin əvvəllərində milli mətbuat səhifələrində öz əksini tapmış materialların təhlilini verərək onların aşağıdakı əsas cəhətlərini göstərirdi:

"Milli məktəblərin açılması. Mövcud kənd molla məktəblərində fars dili əvəzinə ana dilinin öyrədilməsi. Müasir tipli yeni məktəblər açılması".

"Dövlət məktəblərində ana dilinin öyrədilməsinə icazə verilməsi".

"Bütün dini idarələrin və müsəlmanların əmlakının " vəqf " işləri idarəsinin müsəlman əhalisi tərəfindən seçilmiş ruhanilərin və vəzifəli şəxslərin tabeliyinə verilməsi" (12, s. 27)

Maarifçi ziyalılardan olan Ə. Hüseyinzadə etnik milli hisslərin, azadlığın mahiyyətindən bəhs edərək yazırdı:

- Hürriyyət!.. O nə qüvvədir ki, zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını sövq ediyor!..
- Qalib olmaq o camaatındır ki, həyata açıq göz ilə nəzər edər, zamanənin ruhunu, icabatını anlar, dərk edər...
- Türklər ya ölər, ya hicrət edərlər, fəqət, qul olmazlar.

"Füyuzat" jurnalında Əli bəy Hüseynzadə məqalələrinin birində yazırdı: "Bizə fədai lazımdır! Türk hissiyatlı, islam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!" Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və "Tazə həyat", "İrşad", "Yeni füyuzat", "Həqiqət", "Tərəqqi", "İqbal", "Sədayi-həqq", "Şəlalə", "Açıq söz", "Bəsirət", "Qurtuluş", "Dirilik", "Azərbaycan", "Övraqi-nəfisə" mətbuat orqanları tərəfindən "Türkləşmək, islamlaşmaq, müasirləşmək" – azərbaycançılıq şəklində formulə edilərək təbliğ olundu (12, s. 30)

"Azərbaycan Demokratik Respublikası ilk dəfə olaraq milli azadlıq, müstəqillik toxumunu bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi" (16, s. 53-54)

Yuxarıda sadaladıqlarımız və buna bənzər minlərlə faktlar göstərir ki, Azərbaycan xalqı bir millət olaraq öz suverenliyi, azadlığı uğrunda həmişə mübarizə aparmış və heç zaman yadelli işğalçılara, böyük imperiya dövlətlərinə boyun əyməmişdir.

Dünyada analoqu olmayan 20 yanvar faciəsində Azərbaycan xalqının təpədən-dırnağa qədər silahlanmış erməni əsilli əsgərlərinin, generallarının üstünə getməsi bu xalqın böyüklüyünü, vətənə bağlılığını bir daha göstərdi.

Faciədən bir-iki gün əvvəl xəstəxanalarda yatan xəstələrə təklif etmişdilər ki, kimin evi yaxındırsa, getsin evinə, meyitlər "yola salınandan" sonra yenə də qayıdarlar. Bu barədə mətbuatda xəstələrdən birinin dediyi tükürpədici sözlər düşmənə qarşı nifrət hissini oyatmaya bilməz. Qapıbir qonşumuz olan bir rus qadını da beləcə evlərinə yola salınanlardan idi...

Ağladı... Bütün Azərbaycan ağladı. Axı küçələrə sərilmiş, meyitxanalarda əbədi "yuxuya getmiş" nişanlı qardaşının qanını yalayan qardaşa, öləndən sonra bir az da gözəlləşmiş, ay parçasına oxşar cavan qızlara-gəlinlərə, öz əzizinin para şaqqasını tapıb, parasını da axtaranlara, ölüsünü, yaralısını meyitxanalardan, xəstəxanalardan tapmayıb, fəryad qoparanlara kim, hansı daşürəkli ağlamaz? Analar ucadan nalə çəkməyə ehtiyat edirdilər, deyirdilər səsləri gedib "Xilaskar Qızıl orduya", şəhərin hərbi komendantı general-

leytenant Vladimir Dubinyaka çatar, yaxşı çıxmaz... Ona görə də hərə "öz içində" xısın-xısın ağlayırdı, "sıxıb tökürdü" (12, s. 7-8)

20 yanvar faciəsində xeyli insan öldürülmüş və yaralanmışdır. Mətbuatda dərc edilmiş materialda oxuyuruq. "Şəhidlərimiz 130 nəfərdir. Onlardan iki meyitin şəxsiyyəti hələ müəyyən edilməyib. 62 nəfər ailə başçısı, 123-ü kişi, 7-si qadın, 5-i uşaqdır. 159 uşaq yetim qalıb (155-i atadan, 4-ü anadan), 7 nəfər evində öldürülüb. Milli tərkibcə: 116-sı azərbaycanlı, 6-sı rus, 3-ü tatardır" (12, s. 47)

Həmin vaxtlarda Türkiyənin "Zaman" qəzeti yazırdı: " Sovet imperiyası altında əzilən, əzilə-əzilə döyüşən azəri qardaşlarımızın köməyinə yetişmək bizim qardaşlıq borcumuzdur. Orada qardaşlarımız düşmən tanklarının tırıltıları altında çeynəlinərkən, burada rahatca yatıb-qalxmaq haramdır. Qapalı yolları ayaqlarımızla, tikanlı sərhədləri köksümüzlə yarıb köməyə yetişək." (12, s. 49)

Keçmiş SSRİ hökumətinin başçısı M.S. Qorbaçovun ermənilərə havadar durması və Azərbaycan xalqının başına gətirdiyi bu qanlı faciə millətimizin tarixində acı xatirə kimi qalsa da, həm də Azərbaycan xalqının mərdliyini, milli birliyini, vətənin ağır günlərində vətən ətrafında onun müdafiəsi uğrunda mübarizədə birləşməyi bacardı, sınmadı, əyilmədi. Öz milli kimliyini, etnik-psixoloji xüsusiyyətlərini (xarakterini, ləyaqətini, namusunu, əqidəsini, vətənpərvərlik, etnik hisslərini, əxlaqını, davranışlarının ) nümayiş etdirdi.

Bütün dünya bir daha gördü ki, bu xalq yenilməzdi, əyilməzdi, düşmən qarşısında baş əyməzdir. Azərbaycanın bu ağır günlərində Ulu öndərimiz H.Ə. Əliyev böyük Rus imperiyasından qorxmadı, əyilmədi , öz canını vətən uğrunda fəda etməyə hazır oldu. O, bir millət oğlu kimi xalqının harayına gəldi, bütün dünyaya bu faciə haqqında etirazını bildirdi. Sovet İKP sıralarından çıxmağını bəyan etdi. Bu sadə bir iş deyildi. Bu Heydər Əliyev kimi millət oğlunun , qeyrətli, mübariz, iradəli, ağıllı, təmkinli şəxsiyyətinin hünəri idi. O, əlini xalqının çiyninə qoyub ona polad dirək oldu, həyat oldu, ümid güvənc yeri oldu. Xalqını ucaltdı, bununla özü daha da ucaldı. Elə bir vaxtda millətin içindən belə bir qeyrətli oğulun çıxması Azərbaycan xalqının böyüklüyünü dünyaya bir daha tanıtmaq üçün bir mesajı idi. O, həmişə deyirdi " Hər bir insana onun mənsub olduğu milli mənsubiyyət, onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam. Mən xalqımın, vətənimin yolunda şəhid olmağa hazıram" (16, s. 66) Heydər Əliyevin belə etnik-milli davranışları müasir yeniyetmələr üçün bir örnəkdir. Valideynlər, müəllimlər və tərbiyəçilər Heydər Əliyevin proqram xarakterli bu tövsiyələrindən istifadə edərək yeniyetmələrdə milli vətənpərvərlik hissi toxumunu səpməli, onları bu ruhda həyata hazırlamalıdırlar.

Azərbaycanlı yeniyetmələrdə etnik-milli hisslərin formalaşdırılmasında "Xocalı" faciəsinin özünəməxsus təsir qüvvəsi var. Bu dəhşətli soyqırım da milləti bir daha oyatdı. Düşmənə qarşı nifrət hissini, birə-beş artırdı. Anaları, bacıları, qocaları, uşaqları ayaqyalın meşələrə salmaları, körpə uşaqların analarının qucağında, döşü ağzında acından ölmələri, düşmənə qarşı nifrət hissini formalaşdırdı.

Azərbaycanda milli-etnik hisslərin formalaşdırılmasını, bir millət kimi dövlətin, xalqın ətrafında birləşmələrini labüd etdi. Bütün bu hadisələr xalqımızı bir daha düşünməyə öz kimliyini dərk edib, özünə, öz soykökünə qayıtmasına məcbur etdi. Azərbaycan xalqının adi vətəndaşından tutmuş, generallarına, ziyalılarına, əsgər və zabitlərinə yeniyetmə və gənclərinə qədər hamı ayağa qalxdı və ölkənin baş komandanı Cənab İlham Heydər oğlu Əliyevin əmri ilə cəbhəyə getməyə hazır olduqlarını bildirilər. Bunun ən bariz nümunəsi özünü 2016-cı il

"Aprel döyüşləri"ndə göstərdi. 2016-cı il mart ayının 31-dən aprelin 1-nə keçən gücə ermənilər xaincəsinə ölkəmizin sərhədlərinin pozaraq hücuma keçdilər. Ayıq-sayıq əsgərlərin, zabitlərin, komandirlərin silaha sarılaraq, əsil vətənpərvər, milli qürur nümayiş etdirərək düşməni geri oturda bildilər və işğal olunmuş torpaqlarımızın iki min kvadrat kilometr sahəsini azad etdilər. Talış və Lələtəpə yüksəkliyi əsgərlərimizin əlinə keçdi.

Burada əsgərlərimiz əsil qəhrəmanlıq, iradə, milli-etnik hisslər nümayiş etdirərək, ürəklərimizə on illərlə yığılıb qalmış düşmənə qarşı qisasçılıq hissini düşmənin canlı qüvvəsini məhv etməklə göstərirlər. Düzdür, bu döyüşdə bizim də itkilərimiz oldu. Ancaq bir millət olaraq qürurverici oğul və qızlarımızın da hünəri, iradəsi, namusu, qeyrəti, əqidəsi, xarakteri bir

daha bütün dünyaya bəlli oldu. Neçə-neçə milli qəhrəmanlarımız (Murad Mirzəyev, Şükür Həmidov, Samid İmanov və b.) yetişdi. Bu qəhrəmanların dilində Vətən, torpaq, dövlət, ana, ata, bacı, qardaş ifadələri elə bil yeni bir formada (milli qeyrət, təəssübkeşlik, kökə bağlılıq və s.) səslənirdi. Aprel döyüşlərinə həsr olunmuş materiallarda şəhidlərin və yaralıların, döyüş iştirakçılarının etnik-milli xüsusiyyətlərə aid dedikləri sözlər hər bir Azərbaycanlıda qürur hissi doğurur: "Necə kəsim şah damarımı mən? Axan qan Vətənimdir, Vətənimdir, Vətənimdir" (17, s. 137-246)," Vətən sənə canım fəda", "Şəhidlər ölməz, Vətən bölünməz", "Hər şey vətən üçündür" (17, s. 137).

Xalqımızın qürur mənbəyi olan Aprel döyüşləri bu millətin əyilməzliyini, yenilməzliyini, Vətəni canından əziz tutduqlarını bir daha nümayiş. etdirdi. Ermənistan, Azərbaycan, Qarabağ müharibəsində, eləcə də Aprel döyüşlərində xalqımızın, millətimizin, əsgərlərin, milli qəhrəmanların nümayiş etdirdikləri əsil Azərbaycan xalqına xas olan milli şüur, milli kimlik, milliözünüdərk və digər etnik xüsusiyyətlər müasir Azərbaycanlı yeniyetmələr üçün milli qürur mənbəyidir. Bu təsiredici tarixi faktlardan istifadə edib yeniyetmələrin qəlbinə milli etnik hisslər toxumunu səpmək və onun inkişaf edib, böyüməsinə daim diqqət yetirməliyik. Bakının Nəsimi rayonu 5 saylı məktəbin VI sinif şagirdləri ilə aparılan bir sorğu bir daha göstərdi. Sorğunun sualları aşağıdakı kimi idi.

1. Aprel döyüşləri haqqında kim məlumat verə bilər?
2. Aprel döyüşləri xalqımıza nə verə bilər?
3. Aprel döyüşlərində hansı strateji yüksəkliklər ələ keçirildi?
4. Aprel döyüşləri şəhidlərindən, milli qəhrəmanlarımızdan kimlərin adlarını çəkə bilərsiniz?

Sorğuya 25 (VI sinif ) şagirdi cəlb olundu. Müəyyənləşdirici mərhələdə demək olar ki, şagirdlərin heç biri 1, 2, 3-cü suala cavab verə bilmədilər. Dördüncü suala isə şagirdlər yalnız kəndlərindən, məktəblərindən, qohumlarından olan şəhidlərin, milli qəhrəmanların adlarını çəkdilər. Şagirdlərlə ikinci dəfə izahedici sorğudan sonra onların yarıdan çoxu təxminən 55 faizi Aprel döyüşlərinin mahiyyəti, milli qəhrəmanların, şəhidlərin adlarını deyə bildilər.

Azərbaycan psixoloji fikir tarixində ilk dəfə olaraq yeniyetmələrdə milli-etnik hisslərin formalaşdırılması müasir sosial-psixoloji amillərlə əlaqəli surətdə faktiki materiallar əsasında şərh olunur. Bəzi tövsiyələr verilir. Bu baxımdan məqalədə şərh olunan məsələləri yenilik kimi qəbul etmək olar. Mövzu aktualdır. Məsələdə irəli sürülən elmi müddəalardan valideynlər, müəllimlər və digər tərbiyə işçiləri istifadə edə bilərlər. Bu da məqalənin praktik əhəmiyyətinin özündə ehtiva edən məsələlərdəndi.

**Problemin aktuallığı.** Azərbaycan xalqı bir millət olaraq öz suverenliyi, azadlığı uğrunda həmişə mübarizə aparmış və heç zaman yadelli işğalçılara, böyük imperiya dövlətlərinə boyun əyməmişdir.

**Problemin elmi yeniliyi.** Bütün dünya bir daha gördü ki, bu xalq yenilməzdi, əyilməzdi, düşmən qarşısında baş əyməzdir. Bu dəhşətli gündə bəşəriyyət Azərbaycan xalqının qeyrətli oğullarının, qızlarının milli qüruruna, qorxmazlığına heyran oldular.

**Problemin praktik əhəmiyyəti.** Azərbaycanda milli-etnik hisslərin formalaşdırılmasını, bir millət kimi dövlətin, xalqın ətrafında birləşmələrini labüd etdi. Bütün bu hadisələr xalqımızı bir daha düşünməyə öz kimliyini dərk edib, özünə, öz soykökünə qayıtmasına məcbur etdi.

**Ədəbiyyat:**


1. Heydər Əliyev Və Mənəvi Dəyərlər. Bakı, 2003.
2. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2002.
3. Heydər Əliyev. Mədəni irsimizin keşiyində. I, II kitablar. Bakı, 2008.
4. S. Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002.
5. Heydər Əliyev mədəni irsiyyətin keşiyində. I və II kitablar. Bakı, 2001.
6. Kitabi-Dədə Qorqud. Bakı, 1986, 219 s.
7. Hacı Niftalı Şıxlar. 20 Yanvar Faciəsi. Bakı, 2011, 356 s.
8. R. Mirzəzadə " Genderə Giriş ". Bakı, 2004, 120 s.
9. Bayramov Ə.S. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı, 2005, 308 s.
10. Bayramov Ə. Etnik psixologiya məsələləri. Bakı, 1996, 190 s.

11. Bayramov Ə., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003, 306 s.
12. Azərbaycan Xalq Cümhuriyyəti. Bakı, 2018, 315 s.
13. Rəhilə Elçin. Milli Qəhrəmanım. Bakı, 2018, 165 s.
14. Qaralov Z. Idealogiya və mədəniyyət. Bakı, 2008, 216 s.
15. Murad G. Günnüt Zəfəri. Bakı, 2019, 216 s.
16. Seyidov M.K., Rzayev M. Zamanı Qabağlayan Dahi. Bakı, 2008, 286 s.
17. Murad G. Aprel döyüşləri. Bakı, 2018, 360 s.
18. Azərbaycan folkloru. Bakı, 2005, 306 s.

**E-mail:** kamale.mail.ru
**Rəyçi:** *dos.***T.S. Paşayev**

**Redaksiyaya daxil olub**: 22.08. 2019.